Dostumla Lənkəranda təsadüfən görüşdük. Ailəlikcə buraya istirahətə gəldiklərini bildirdi, lakin istər istirahət mərkəzlərində, istərsə də hotellərdə boş yer tapa bilmədiklərindən gileyləndi. Ona kömək göstərməyi özümə borc bilib şəhər icra hakimiyyətində müvafiq şöbənin müdirinə müraciət etdim. Sağ olsun, sözümüzü yerə salmadı. “Əyləşin, görək nə edirik”, - deyib, xidməti və mobil telefonla müxtəlif ünvanlara zəng vurmağa başladı. Danışığından hiss olunurdu ki, istirahət mərkəzlərində boş yer yoxdur.

# “Cənub mirvarisi”nə turistlərin marağı getdikcə artır



## İndi buradakı istirahət mərkəzlərində boş yer tapmaq çətindir

Sonra o: “Bütün yerlər doludur. Mənə qalsa, “Palıdlı sahil” istirahət mərkəzinə getsəniz, lap yaxşı olardı, - deyə sözünə davam etdi, - ora şəhərdən azca kənarda, sakit bir guşədə yerləşir. Təmiz havası, yaşıllığı var, özü də Xəzərin lap sahilindədir. Ancaq nə edəsən ki, boş yerləri yoxdur. Administrator deyir ki, boş yerimiz avqust ayının 25-dən sonra olacaq”. Getmək istəyirdik ki, telefon zəng çaldı. Şöbə müdiri əli ilə bizə əyləşmək işarəsi etdi. Telefon söhbətini qurtarandan sonra: “Deyəsən, yanınızda üzüqara qalmayacağıq. Zəng vuran “Qafqaz sahil hotel”in administratoru idi. Dedi ki, istirahət edənlərdən biri indicə ona müraciət edərək, təcili işi çıxdığı üçün Bakıya qayıtmalı olduğunu bildirib. Odur ki, yeriniz orada hazırdır, gedib yerləşə bilərsiniz”, - dedi.

“Qafqaz sahil hotel”ə getdik. İnsanların xoş və mənalı istirahəti üçün burada hər cür şərait var. Binadakı işıqlı, səliqəli otaqlar, ətrafda tikilmiş koteclər istirahətə gələnlərin hər birinin zövqünü oxşayır. Mərkəzin həyətində salınmış yaşıllıq, əkilmiş müxtəlif növ nadir dekorativ ağaclar ilk baxışdan yaranan təəssüratı daha da zənginləşdirir. İstirahət məkanı Xəzərin sahilində yerləşir. Buradakı çimərlik isə turistlərin ən çox sevdikləri yerdir. Dənizin sahilindən qərb istiqamətinə baxanda fərqli bir mənzərə göz önündə canlanır. Yaşıl meşə örtüyünə bürünmüş Talış sıra dağları göz işlədikcə uzanıb gedir. Bu füsunkar diyar insanı valeh edir. Subtropik iqlim şəraitinə malik olan Lənkəranı rus xalqının böyük yazıçısı N.Tixonov “Cənub mirvarisi” adlandırıb. Son illər Lənkəran daha da inkişaf edib, gözəl və abad olub. Bunlar isə bölgəyə turist axınını sürətləndirib.

“Qafqaz sahil hotel”də istirahət edən Kosyuba Vera İvanovnadan istirahətlərinin necə keçdiyini soruşuruq. “Mən özüm də jurnalistəm, “Moskva-24” telekanalında işləyirəm. Ərim Aleksandr və qızım Mariya ilə artıq 5-ci gündür burada dincəlirik.





Lənkəran yaxşı yerdir. İnsanları mehriban, təbiəti gözəldir. Mətbəxinə də söz ola bilməz, - deyir, - görürsünüz, hər üçümüz çimərlikdə yaxşı günəş vannası qəbul edib qaralmışıq. İstirahətimiz yaxşı keçir. Vaxt tapanda şəhərə gəzintiyə çıxırıq. Bir mənfi cəhət var ki, istirahət edənləri gəzintiyə, ekskursiyaya aparmırlar. Lakin biz bilirik ki, buranın kifayət qədər gəzməli, görməli yerləri var. Buna baxmayaraq, Lənkərana yenə gələcəyik. Əvvəlki illərdə Qəbələ və Şəkidə də istirahət etmişik”.

“Palıdlı sahil” Lənkəranın ən nümunəvi istirahət yerlərindən biridir. Adından da göründüyü kimi, o, dənizin böyük ərazi boyu uzanıb gedən palıd ağaclı zolağında yerləşir. Qürur, əzəmət, vüqar simvolu olan bu ağaclar yayın isti günlərində ətrafa yaşıl çətir açıb. Mavi gözlü, qırçın ləpəli Xəzər istirahət mərkəzinin beş addımlığındadır. Buradan da Talış dağları ovuc içi kimi görünür. Son illər istirahət mərkəzi xeyli dəyişib: Avropa standartlarına cavab verən 2 korpus inşa edilib, dənizdən 20-25 metr kənarda uşaqlar üçün xüsusi hovuz tikilib. İstirahət mərkəzində şəkərli diabet xəstələri üçün hər cür şərait yaradılıb. Elə buna görə də “Azərbaycan Diabet Liqası” İctimai Birliyi 7-ci ildir diabetli xəstə uşaqları yay aylarında bura gətirir. İctimai Birliyin sədri, Respublika Endokrinoloji Mərkəzin həkimi Yeganə Sultanova dedi ki, bu dəfə Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə 40 nəfər aztəminatlı ailələrin uşağını bura gətirmişik. Xüsusi qayğıya ehtiyacı olan diabetli uşaqlar hər cür qayğı ilə əhatə olunublar. Uşaqlar vaxtlarını mənalı və şən keçirirlər. Onlara şəkərli xəstənin necə yaşaması təlim edilir. Hər şey uşaqların ürəyincədir. Hərdənbir gəzintiyə də gedirik. Bu yaxınlarda Yardımlı şəlaləsində olduq. Bir sözlə, “Palıdlı sahil” nümunəvi istirahət mərkəzidir. Buraya gəlməyə dəyər.

Bunlar onu göstərir ki, Lənkəranda turizm inkişaf edir. Cari ildə burada 3 yeni müasir tipli mehmanxana, bir uşaq əyləncə mərkəzi inşa edilib və istifadəyə verilib. Hazırda rayonda 16 mehmanxana və mehmanxana tipli obyekt fəaliyyət göstərir. Bir neçə ildir burada Turizm İnformasiya Mərkəzi yaradılıb. O, mehmanxana və mehmanxana tipli obyektlərlə əlaqəli şəkildə fəaliyyət göstərir. Mərkəzdə Lənkəranın turizm potensialını göstərən bukletlər çap edilib, qonaqlara təqdim olunmaq üçün turizm obyektlərinə, muzeylərə, kitabxanalara paylanıb.

Rayonun turizm potensialının beynəlxalq səviyyədə təbliği ilə bağlı bu ilin aprel ayında Bakı şəhərində təşkil olunmuş Turizm və səyahətlər sərgisində Lənkəran layiqincə təmsil olunub. Sərgi çərçivəsində ilk dəfə olaraq yerli istehsal olan milli suvenirlər təqdim edilib.

Qeyd edək ki, bu il mayın 11-də “Euronews” telekanalının əməkdaşları Lənkəranda olub, buranın təbiətini, çay plantasiyalarını lentə alıblar. Həmin süjet iyun ayında “Euronews” kanalında Azərbaycanın vizit kartı olub. Süjet efirə gedəndən sonra Rusiya və Avropadan olan turistlər Turizm İnformasiya Mərkəzinə müraciət edərək Lənkəranla maraqlanıblar.

Xaricdən gələn turist axınını nəzərə alaraq turizm obyektlərində xidmətin səviyyəsinin yüksəldilməsi üçün rayonda mütəmadi olaraq treninq və seminarlar təşkil edilir. Belə ki, iyun ayının 2-dən 9-na kimi davam edən təlimlərdə Lənkəranla yanaşı, Astara, Lerik və Masallı rayonlarında fəaliyyət göstərən istirahət mərkəzlərinin nümayəndələri də iştirak ediblər. Təlimin sonunda “Mehmanxana idarəçiliyi” üzrə 24, “Qeyd-qəbul işinin təşkili” üzrə 22, “Masa xidmətinin təşkili” üzrə 27 və “Xidmətçilik” üzrə 12 nəfərə müvafiq sertifikatlar təqdim olunub. Görülən işlərin davamı olaraq mehmanxana və mehmanxana tipli obyektlərdə xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə Lənkəran şəhərində Türkiyədən dəvət olunmuş mütəxəssislərin iştirakı ilə təlimlər keçirilib.

Lənkəranın turizm potensialının təbliği ilə əlaqədar bu il paytaxt Bakıda “Bölgələrdən paytaxta” layihəsi çərçivəsində Akademik Milli Dram Teatrının binasında tədbir keçirilib, burada fotoların sərgisi təşkil edilib, turizmə aid videoçarx nümayiş olunub. Tədbirdə Respublika Mədəniyyət və Turizm naziri Ə.Qarayev və Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı T.Qaraşov görülən işlər barədə danışıblar.

Bütün bunlar “Cənub mirvarisi” olan Lənkəranda turizmə böyük diqqət yetirildiyinin əyani göstəricisidir. 2016-cı ilin 7 ayı ərzində rayonun istirahət mərkəzlərində dincələn turistlərin sayı 10 min nəfər olub ki, bunun da 15 faizini əcnəbilər təşkil edib. Halbuki 2010-cu ildə rayona 3 min, 2015-ci ilin 7 ayında cəmi 7 min turist səfər etmişdi. Rəqəmlər özü-özlüyündə hər şeyi açıq-aydın şərh edir. Dinamika yaxın illər ərzində buraya turist axınının daha da çoxalacağına inam yaradır.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***